Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 182 (1310) 4 oktyabr - 5 oktyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Hacıqabul inkişaf yollarında

> **"...Rayonun sosial-iqtisadi inkişafı ilə bağlı tədbirlər görülür, vaxtaşırı Prezidentin ehtiyat fondundan vəsait ayrılır, dövlət investisiya proqramında məsələlər öz həllini tapır. Növbəti illər üçün bu günə qədər həll edilməyən məsələlər də öz həllini tapacaqdır".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

**Bu gün ölkə həyatına diqqət yetirəndə təbii ki, daha çox göz oxşayan bir gerçəklik insanın ovqatını xoş edir. Bu da həm insanların iş yerinin olması, həm də bu iş yerinin mahiyyətinin ürək açmasıdır. Yeni aparılan tikinti-abadlıq işləri həm ölkəmizi gözəlləşdirir, həm də bu gözəlliyi yaradanların özləri, ailələri sosial cəhətdən daha yaxşı təmin edilmiş olurlar. Bax, bu mənada regionların inkişafına dair Dövlət Proqramının mərhələləriini izlədikcə insan özündən asılı olmadan bir fəxarət hissi yaşayır. Bu da əvvəldə dediyim kimi, gözəlləşən Azərbaycanımız və rifah halı yaxılaşan Azərbaycan vətəndaşının durumudu.**

Bəli, Hacıqabul rayonu ölkənin paytaxtından çox da uzaqda yerləşmir. Necə deyərlər, magistral yolun kənarında olan rayon mərkəzi, eləcə də onun digər kəndləri, yaşayış məntəqələri həm rayonun özünə, həm də onun digər yaşayış məntəqələrinə səfər edən hər kəsdə müəyyən bir müsbət hisslər oyadır. Çünki səfərlər yeniləşdikcə adı çəkilən bölgədə aparılan yenidərqurma da, bərpa işləri də, hətta təmir-abadlığın özü də dərhal adamın gözünü oxşayır. Baxıb görürsən ki, bir il, ay bundan öncə gördüyün mənzərə kökündən dəyişibdi. Təbii kit, bu da bacarıqlı rəhbərliyin və zəhmətkeş insanların fəaliyyəti nəticəsində həyatda təsdiqini tapır. Bir müddət öncə rayona səfər edərkən gördüklərim məni də özünə çəkdi. məhz həmin hisslərin təsiri altında qeyri-ixtiyarı rayon mərkəzini gəzib dolaşdım. Açığını etiraf edim ki, Hacıqabulda gözlə görünüb könül oxşayan xeyli yeniliklər baş vermişdi. Elə həmin uğurlu inkişafına rəqəmlərlə ifadesi də dediklərimizi təsdiq edir. Yəni Hacıqabul rayon icra hakimiyyətinin başçısı Əhməd Muxtarovun ötən il ərzində rayonda həyata keçirilmiş sosial-iqtisadi proqramın nəticələri ilə bağlı rayon fəallarına verdiyi hesabatdan məlum olmuşdu ki, 2016-cı ilin arxada qalan müddətində Hacıqabul rayonunda yaddaqalan hadisələr baş vermiş və bu əlamətdar hadisələrin də hər birinin arxasında hacıqabulluların böyük əməyi, alın təri dayanmışdı.

Rayon icra hakimiyyəti başçısının vurğuladığı kimi, ötən il Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi 2015-ci ilin müvafiq dövrünə nisbətən 2,3 faiz artaraq 65,8 faiz təşkil etmişdi. Göründüyü kimi, bir il ərzində iqtisadiyyatın bütün sahələri üzrə məhsul satışında 2,3 faiz artım əldə etmək məhz həmin o gərgin əməyin ifadəsidi.

Ölkə həyatının aparıcı sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı da Hacıqabul rayonunda həmişə diqqət mərkəzində saxlanılır. Yəni rayon rəhbərliyi bütün imkanlardan istifadə edərək öz sakinlərini kənd təsərrüfatı məhsulları ilə təimn etməklə yanaşı, həm də ölkə həyatında yaxından iştirak etməyə də xüsusi diqqət yetiribdi. Məhz bunun nəticəsidi ki, ötən il 6415 ha buğda, 6124 hektar isə arpa səpini həyata keçirilmiş və sonda da 2013-cü ildəkindən 348 ton çox buğda, 532 ton artıq arpa istehsal etmək mümkün olmuşdu. Torpağa artan diqqət, göstərilən aqrotexniki xidmət son nəticədə istehsalın artımına gətirib çıxarmışdı. Arpa və buğda ilə yanaşı rayonda bostan-tərəvəz məhsullarının istehsalında diqqəti çəkən üstünlüklər önə çıxmışdı. Yəni 2014-cü illə müqayisədə 2015-ci ildə tərəvəz, meyvə artımı qeydə alınmışdı. Bunun özü də həm sakinlərin, həm də ölkənin meyvə-tərəvəz təminatında müsbət göstəricidi. Ümumiyyətlə, kənd təsərrüfatının bütün sahələrində, o cümlədən də heyvandarlıq və quşçuluq sahələrində də hacıqabullular uğurlara imza atmışdılar. Bu söylədiklərimizi rəqəmlərin dilə çevirsək, onda məlum olar ki, ötən il Hacıqabul rayonunda 3643 ton ət, 4 ton süd, 1 ton yun, 46 milyon 716 min ədəd yumurta istehsal olunmuşdur. Bu istehsal özü-özlüyündə həm yerli, həm də ölkə bazarlarını təmin etməkdə öz sözünü demiş və regionların inkişafına dair Dövlət Proqramının müsbət nəticəsi kimi önə çıxmışdı. Birmənalı şəkildə vurğulamaq olar ki, ötən il öz sakinlərini təimn edən Hacıqabul rayonunun kənd təsərrüfatı əməkçiləri paytaxt sakinlərinə 32,8 ton bostan məhsulları, 19,7 ton meyvə, 10,3 ton mal əti, 6,3 ton qoyun əti və 645 min ədəd yumurta satışı reallaşdıra bilmişdi. Yəni paytaxta təşkil edilən kənd təsərrüfatı yarmarkalarına hacıqabullular həmişə əlidolu gəlmişdilər.





**Rayonda olarkən onu da öyrəndik ki, Hacıqabulda torpağa ondan istifadəyə xüsusi diqqətlə yanaşılır. Bunun nəticəsidir ki, torpaq mülkiyyətçiləri güzəştli qiymətlərlə əldə etdikləri 76,45 ton mineral gübrənin torpağın qüvvətləndirilməsində, məhsuldarlığın artırılmasında gərəkliyini müsbət qiymətləndirərək torpağa özəl münasibət bəsləmişdilər və nəticədə də gübrə ilə təmin olunan əkin sahələri öz sahibinin üzünü ağ etmiş, yüksək məhsulla hər bir mülkiyyətçini sevindirmişdi.**

**(Ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ